# Etibarlı tərəfdaşlıq

**"Azərbaycan-Misir münasibətləri özünün inkişaf dövrünü yaşayır. Dövlət başçılarının qarşılıqlı səfərləri ölkələr arasındakı münasibətlərin inkişafına yeni impuls verir. Bu baxımdan Prezident İlham Əliyevin iyunun 8-də Misirə rəsmi səfəri iki ölkənin inkişafında yeni səhifə açacaq".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat qeyd edib ki, Azərbaycan və Misir eyni dini baxışları və oxşar mədəniyyətləri olan ölkələrdir: "Misir Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdəndir. Ölkələrarası diplomatik münasibətlər 1993-cü ildən formalaşmağa başlamışdır. İndiyədək imzalanmış 60-a yaxın sənəd münasibətlərimizin inkişaf etdirilməsinin hüquqi bazasını təşkil edir. Azərbaycanda və Misirdə keçirilən qarşılıqlı mədəniyyət günləri xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. Dövlət başçımızın səfəri çərçivəsində yeni sənədlər imzalanmış, energetika, bərpaolunan enerji, neft sənayesi, alüminium sənayesi və digər istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində məsələlər müzakirə olunmuşdur".

Deputat həmçinin Azərbaycanla Misir arasında ticarət dövriyyəsinin artan templə inkişaf etdiyini, lakin bunun ölkələrin mövcud iqtisadi potensialına adekvat olmadığını bildirib. Qeyd edib ki, dövlət başçılarının hökumətlərarası komissiyalara verdiyi tapşırıqlar iki ölkə arasında iqtisadi potensialın müəyyənləşdirilməsi və inkişafı istiqamətində müsbət nəticələrin əldə olunmasına yol açacaq.

Azər Badamovun sözlərinə görə, səfər çərçivəsində müzakirə olunan mövzulardan biri də "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat logistik dəhlizlərində əməkdaşlığın genişləndirilməsi ilə bağlı olub: "Bu gün qlobal iqtisadiyyat üçün ən aktual məsələlərdən biri də yeni nəqliyyat logistik dəhlizlərindən istifadə olunmaqla, ölkələrarası iqtisadi əlaqələrin davam etdirilməsidir. Ölkəmizin ərazisindən keçən "Şimal-Cənub" nəqliyyat dəhlizi Rusiyadan Fars körfəzinə qədər uzanmaqla böyük bir coğrafiya üçün səmərəli iqtisadi əməkdaşlıq imkanları yaradır. O cümlədən "Şərq-Qərb" nəqliyyat dəhlizi də Fars körfəzindən Avropaya uzanan daha rentabelli nəqliyyat kommunikasiyası formalaşdırır. Misir də ölkəmizin ərazisindən keçən bu dəhlizlərdən istifadə edərək özünün beynəlxalq iqtisadi əməkdaşlığını daha rentabelli şəkildə genişləndirə biləcək".

Deputat onu da vurğulayıb ki, prezidentlər mətbuata birgə bəyanatlarında beynəlxalq gündəmə və ölkələrarası münasibətlərin inkişafına aid bir çox məsələlər ətrafında fikirlər səsləndiriblər: "Həmçinin Prezident İlham Əliyev Misir Prezidentini bu il Azərbaycanın evshaibliyi etdiyi COP29da iştirak etmək üçün ölkəmizə dəvət edib. Səfərin bütün elementlərini nəzərə aldıqda, əminliklə qeyd etmək olar ki, İlham Əliyevin Misir səfəri ölkələrarası münasibətlərin inkişafı baxımından ciddi əhəmiyyət kəsb edir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 11 iyun, №122.- S.5.